# 20 Yanvar Ümumxalq Hüzn Günü qeyd olundu

## FHN Şimal-qərb Regional Mərkəzində 20 Yanvar faciəsinin 25 illiyinə həsir olunmuş tədbir keçirilmişdir



Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzində 16 yanvarda xalqımızın qəhrəmanlıq tarixində silinməz iz qoymuş "20 Yanvar" faciəsinin 25-ci ildönümünə həsr edilmiş geniş tədbir keçirilmişdir. Tədbirdə FHN Şimal-qərb Regional Mərkəzinin şəxsi heyəti ilə yanaşı, Dövlət Yanğın Nəzarəti Xidmətinin, Şimal-qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, Dövlət Yanğından Mühafizə Xidmətinin Qəbələ Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin, Şimal-qərb Regional Sənayedə İşlərin Təhlükəsiz Görülməsi və Dağ-mədən Nəzarəti Agentliyinin Şimal-qərb Regional Sənayedə işlərin təhlükəsiz görülməsi və dağ-mədən nəzarəti müfəttişliyinin, Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin Şimal-qərb Regional Tikinti müfəttişliyinin nümayəndələri də iştirak edirdilər.

Əvvəlcə tədbir iştirakçıları müstəqil Azərbaycan uğrunda qəhrəmancasına şəhid olmuş oğul və qızlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Mərkəzin rəisi, mayor Sadiq Bəkirli çıxış edərək 1990-cı ilin yanvar ayının 19-dan 20-ə keçən gecə Sovet ordusunun Azərbaycanda törətdiyi qətliam haqqında danışdı. Natiq həmin gecə keçmiş sovet dövlətinin hərb maşınının dinc Azərbaycan xalqına qarşı törətdiyi qətllərin insanlığa qarşı ağır cinayətlər olduğunu, milli azadlığı və öz ölkəsinin ərazi bütövlüyü uğrunda mübarizəyə qalxmış xalqa görünməmiş divan tutduğunu qeyd edərək bildirdi ki, bu hadisələrə ən böyük siyasi qiyməti Ümummilli lider Heydər Əliyev elə hadisədən bir gün keçməmiş vermişdir.



Sonra "20 Yanvar faciəsi Azərbaycan xalqının qan yaddaşından heç vaxt silinməyəcəkdir" mövzusunda videoçarx izlənildi.

Daha sonra Mərkəzin İctimaiyyətlə əlaqə və təbliğat sektorunun müdiri Qoşqar Əzizov, ümumi sektorun baş məsləhətçisi Ceyhun Babayev, Şimal-qərb Regional Tikinti müfəttişliyinin rəisi Qadir Hacıyev, Qəbələ Rayon Dövlət Yanğından Mühafizə Hissəsinin rəisi Arzu Umuyev, Şimal-qərb Regional Sənayedə işlərin təhlükəsiz görülməsi və dağ-mədən nəzarəti müfəttişliyinin baş məsləhətçi-baş müfəttişi Seymur Şirinov çıxış edərək müstəqil Azərbaycan uğrunda qəhrəmancasına şəhid olmuş oğul və qızlarımızın göstərdiyi şücaətlər barədə, Azərbaycan xalqının özünün dövlətçilik ənənələrini, tarixi ərazilərinin bütövlüyünü, mənəvi dəyərlərini və ən əsası, müstəqilliyini qoruyub saxlamaq üçün tarixən göstərdiyi qəhrəmanlıqlar barədə geniş danışdılar.

Sonda istənilən vaxt Ali Baş Komandanın əmri ilə hər bir Azərbaycan vətəndaşı ölkəmizin müstəqilliyi uğrunda əzmkarlıqla döyüşməyə, yeri gəldikdə bu müqəddəs amal uğrunda qəhrəmancasına şəhid olamağa hazırdır devizi ilə tədbir bağlı elan olundu.

**FHN Şimal-qərb Regional Mərkəzinin İctimaiyyətlə əlaqə və təbliğat sektoru.**

## Gənclər şəhidlərimizi unutmurlar

Qəbələ Rayon Gənclər və İdman İdarəsi müvafiq tədbirlər planına əsasən Qəbələ Rayon Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi ilə birlikdə 20 Yanvar faciəsinin iyirmi beşinci ildönümü ilə əlaqədar olaraq 15 yanvar 2015-ci il tarixdə "Şəhidlər unudulmur" adlı tədbir keçirmişdir. Tədbirdə mərkəzin müəllim və şagird kollektivi, həmçinin rayonun fəal gəncləri iştirak etmişlər.

Peşə tədris mərkəzinin direktoru Eyvaz Kazımov tədbiri giriş sözü ilə açmış, şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir. Sonra rayon gənclər və idman İdarəsinin rəisi Fəxri Soltanov 20 Yanvar faciəsinin baş vermə səbəbləri haqqında məlumat vermiş, faktlar və həqiqətlərdən danışaraq bu faciəni doğuran o vaxtkı ictimai-siyasi hadisələri geniş təhlil etmişdir.

Məruzə ətrafında tədris mərkəzinin gənclərin çağrışa qədərki hazırlıq rəhbəri İlham Əfəndiyev, direktor müavini Reyhan Məmmədova, Qəbələ şəhər məscidi imamının müavini Saleh Şirinov, Qəbələ Rayon Uşaq və Ailələrə Dəstək Mərkəzinin direktoru Rəna Mahmudova cıxış edərək Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuş qanlı yanvar faciəsində şəhid olanların tarixə qəhrəmanlıq salnaməsi yazdıqlarını, onların xatirəsinin yaddaşlardan heç vaxt silinməyəcəyini və şəhidliyin müqəddəs bir zirvə olduğunu bildirmişlər.

Daha sonra Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzinin şagirdlərindən Günay Cahangirli və Kənan Nəsibov 20 Yanvar faciəsi haqqında şeirlər söyləmişlər.

**Mübariz AĞAYEV,**
**gənclər və idman idarəsinin aparıcı məsləhətçisi.**

## Faktlar və rəqəmlər

1980-ci illərdən başlayaraq yaranan M. S. Qorbaçov-erməni iş birliyi tərəfindən Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağın Azərbaycan Respublikasının tərkibindən çıxarılaraq Ermənistana verilməsi kimi xəyanətkar bir ideyanın əsası qoyuldu.

❁ ❁ ❁

İmperiya rəhbəri M. S. Qorbaçovun iqtisadi məsələlər üzrə müşaviri Aqambekyan Fransada çıxan «Hümanite» qəzetində Dağlıq Qarabağın Ermənistana veriləcəyi barədə dərc olunan məqaləsi sovet rejimi rəhbərliyinin Azərbaycana qarşı münasibətinin dəyişməsinin artıq təsdiqi idi.

❁ ❁ ❁

Dağlıq Qarabağın Ermənistana birləşdirilməsini sürətləndirmək üçün sovet rəhbərliyində başlıca maneə olan Heydər Əliyev əvvəlcədən hazırlanmış plan əsasında 1987-ci ildə istefaya göndərildi. Bu, həqiqətdə Azərbaycana ağır zərbə idi. Elə bundan dərhal sonra Ermənistanın Azərbaycana qarşı çıxışları güclənməyə və dərinləşməyə başladı. Dağlıq Qarabağda separatçı mitinqlər geniş vüsət aldı. Mətbuatın Azərbaycan əleyhinə açıq və qərəzli çıxışları başladı.

❁ ❁ ❁

1988-ci ilin fevral ayının 20-də Xankəndində Vilayət xalq deputatları sovetinin sessiyası Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi haqqında qərar qəbul etdi. Artıq hadisələrin gedişi Azərbaycan əhalisində güclü etirazlara gətirib çıxardı. Nəhayət, 1988-ci ilin sonlarına yaxın Bakıda «Meydan hərəkatı başlandı.

❁ ❁ ❁

Sonralar Azərbaycandakı hadisələrə qarşı mərkəzin boşluğundan istifadə edən Ermənistan Azərbaycan torpaqlarının işğalını davam etdirmiş və antiazərbaycan siyasətini dərinləşdirmişdir. Həm mərkəzin havadarlığından, həm də Azərbaycan rəhbərliyinin laqeydliyindən istifadə edən Ermənistan Ali Soveti 1989-cu ilin dekabr ayının 1-də Dağlıq Qarabağın Ermənistan SSR ilə birləşməsi haqqında qərar qəbul etmişdir.

❁ ❁ ❁

1990-cı ilin yanvar ayının 15-də SSRİ Ali Soveti Rəyasət Heyəti Dağlıq Qarabağ Muxtar Vilayətində və bəzi digər rayonlarda fövqəladə vəziyyətin elan edilməsi haqqında fərman imzaladı. Əslində bu fərman başlığından da göründüyü kimi azərbaycanlıların Dağlıq Qarabağdakı yurd-yuvalarına qayıtmaq ümüdlərinə son qoydu.

❁ ❁ ❁

Hadisələrin gedişi, xalqın taleyinə açıq-aşkar laqeydlik Bakıda və rayonlarda xalq kütlələrinin qəzəb və etirazlarını daha da genişləndirdi. Çünki xəyanətkar planların həyata keçirilməsinin qarşısını almaq üçün xalqın ayağa qalxmaqdan başqa yolu qalmamışdı. SSRİ rəhbərliyi isə ədaləti bərqərar etmək əvəzinə yanvarın 19-dan 20-nə keçən gecə Sovet Ordusunun xüsusi təyinatlı dəstələrini və daxili qoşunların iri kontingentini fövqəladə vəziyyət elan etmədən Bakıda nümayişə çıxan əhalinin üzərinə göndərdi. Ən müasir silaha sarılmış kontingent xalqa qarşı xüsusi qəddarlıq, misli görünməmiş vəhşiliklər törətdi. Öz konstitusion hüquqlarının bərqərar edilməsi tələbi ilə küçələrə çıxan dinc, silahsız əhali güllələnərək edildi. Yüzlərlə insan qətlə yetirildi, yaralandı.

❁ ❁ ❁

20 Yanvar hadisələri heç də xalqı qorxutmadı. Bu hadisələr böyük imperiyaya qarşı qəzəb və nifrəti daha da alovlandırdı. Nəhayət, 1991-cii lin 18 oktyabrında Azərbaycan Respublikasının Ali Soveti keçmiş SSRİ dövlətinin tərkibindən çıxması barədə fərman imzaladı və ölkənin müstəqilliyi, azadlığı elan olundu. Lakin 20 Yanvar hadisələrinə hələ də siyasi qiymət verilməməsi davam edirdi. Yalnız 1990-cı ilin yanvar ayının 21-də xalq deputatı Heydər Əliyevin təklifi ilə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Bakı hadisələrinə siyasi qiymət verdi.

❁ ❁ ❁

1998-ci ilin mart ayının 31-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevın fərmanı ilə «20 Yanvar şəhidi» fəxri adı təsis edildi. 9 yanvar 2006-cı ildə isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fərmanı ilə «20 Yanvar şəhidinin ailəsi üçün Azərbaycan Respublikası Prezidentinin təqaüdü» təsis edildi.

**Nadir ATAKİŞİYEV.**